Dəyərlərin aşındığı, milli adət-ənənələrin ciddi deformasiyalara məruz qaldığı, hətta fəlsəfəni, ictimai və humanitar elmləri təmsil edənlər sırasında «bu dəyərlər deyilən şeylər nədir, onlar kimə və nəyə lazımdır? Mən belə nəsnələri, sadəcə, anlamıram və qəbul etmirəm!» qənaəti ilə çıxış edənlərin sayının artdığı bir dövrdə gözəl keyfiyyətlər, fəzilətlər daşıyıcısı olmaq hər kəsə nəsib olmur. Bunun üçün, həqiqətən, gərək insan «Zat» paklığına və qüdrətinə, anadangəlmə qan təmizliyinə, irsi təpərə, cəsarətə, istedada və fədakarlığa malik olsun. Professor Qulu Məhərrəmli məhz bu qəbildən olan nadir şəxsiyyətlərdəndir: əsli-nəsli, kökü olan və bu zəmində öz zəhməti, hünəri hesabına kamilləşmiş, yüksək mənəvi-intellektual səviyyəyə yüksəlmiş İnsan!

Neçə illərdir Qulu müəllimin ictimai həyatda və ekrandakı çoxşaxəli fəaliyyətini izləyirəm, qəlb yanğısı ilə yazdığı publisist məqalələrini oxuyuram, cəmiyyətdəki ölçülü-biçili, əsl vətəndaş davranışını görürəm. Onun ağıllı, mərifətli, nizam-intizamlı, əməli-saleh, ictimai hadisələrə həssas olması hər şeydə özünü göstərir: bilavasitə işində, davranışında, danışığında, insanlara münasibətində. Özü də burada qətiyyən sünilik yoxdur, çünki hər şey daxili substansiyadan, dediyim kimi, «Zat»dan gəlir. Belə adamlar ən dolaşıq dövrlərdə də, ən qəliz əhatədə də öz səmimilikləri və prinsip adamı olmaları ilə özlərinə hörmət hissi oyadır, ürəkləri fəth edirlər. Ürəkləri məftun etmək isə, fikrimcə, ən böyük qələbədir. Onu nə ağılsız şücaətlə və yalançı işgüzarlıqla, nə də adamları təngə gətirən təlxəkliklə, keçici dəb xatirinə gözə kül üfürmək üçün yalançı çalışqanlıqla qazana bilərsən. Belə qələbə yalnız ağıl və mənəviyyatdan doğan insani keyfiyyətlər, gözəl əməllər hesabına əldə edilir.

# VİCDANLI VƏ FƏDAKAR ZİYALI




İnsanlarla qarşılıqlı fikir mübadiləsi zamanı, xüsusən də gənclərlə görüşlərdə mən tez-tez belə bir fikri çatdırmağa çalışıram: bütün elmlərin, o cümlədən – fəlsəfənin, başlıca qayəsi «Ölçü»nü dəqiq müəyyənləşdirmək, bilmək və ona əməl etməkdir. Bu fikrimdə indi də israrlıyam. Lokal və qlobal miqyasda ortaya çıxan bir çox xoşagəlməz hadisə və proseslər, tənəzzül və böhran halları, yəqin ki, hər şeydən əlavə, həm də ölçüyə saygısız və qayğısız münasibətin nəticəsidir. İstər iqtisadiyyat və siyasət, istərsə də əxlaq-mənəviyyat sahəsi olsun, ölçü ilə hesablaşmamaq birbaşa qeyri-tarazlığa, ədalətsizliyə, mizan-tərəzinin pozulmasına aparır, deməli, narazılığa, qarşılıqlı nifrətə, toqquşmalara yol açır. Beləliklə də cəmiyyətdə diskomfort durum formalaşır, destruksiya artır, intellektual və təbii resurslardan istifadədə səmərəsizliyə, israfçılığa meydan verilir, quruculuq və yaradıcılıq yox, dağıdıcılıq, məhvetmə ovqatı hakim kəsilir. Bu cür üzdəniraq vəziyyətin yaranmamasında da dəyərli ziyalıların yeri və rolu əvəzsizdir. Hörmətli Qulu müəllimin ictimai statusunu, onun missiyasını bu mənada da yüksək dəyərləndirirəm, çünki tanıdığım adamlar içərisində «Ölçü»yə münasibətdə ən müsbət cəhətlərilə fərqlənən alim-jurnalist, nümunəvi ziyalılardandır. Məhz belə fikir və əməl sahibləri hesabına cəmiyyətimiz, az-çox, öz saflığını, təravətini və milli kimliyə saygılı münasibətini saxlaya bilir. Məhz Qulu Məhərrəmli kimi ümumi dərdlərə biganə qalmayanların ağır zəhməti, şəxsi iztirabları sayəsində millətimiz haqq-ədalət naminə mübarizəsində dalanlarda ilişib qalmır, zamanla ayaqlaşmada yeni güc, enerji, ruh qazanır. Populizm və şəxsi dividentlər naminə yox, Həqiqət, Ədalət, Ana Torpaq, Ana Dili, milli və bəşəri dəyərlər uğrunda ağıllı, fədakar mübarizə aparanlar qədirbilən xalqımızın qəlbində-düşüncəsində özlərinə yuva salmaqla onun «həyat düsturu»nu tənzimləyir.

Qulu Məhərrəmli millət, dövlət, ictimai əxlaq məsələlərində keçici təsirləri, yersiz tərəfliliyi, qeyri-obyektivliyi qəbul etməyən, haqqın və vicdanının səsinə qulaq asan, əməli işə üstünlük verən, tolerant davranış xüsusiyyətləri, xeyixahlığı, incə zövqü, peşəkarlığı ilə seçilən ziyalılarımızdandır. Məhz bütün bu keyfiyyətlərinə görə o, sevilir və yüksək dəyərləndirilir. İnsanlar Qulu müəllimin adı arxasında vicdanlı, məsuliyyətli, istedadlı və əməksevər bir şəxsiyyət görürlər. Belə şəxsiyyətlər həmişə xalqımızın ümid yeri olublar və olacaqlar. Mən əziz həmkarımız Qulu müəllimə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram! Həyat və yaradıcılığı həmişə səliqəli-sahmanlı, məhsuldar və xoş ovqatlı olsun!

***Əbülhəsən ABBASOV,***
***fəlsəfə elmləri doktoru, professor,***
***Rusiya Pyotr Akademiyasının müxbir üzvü***